# II BÖLÜM

# MÜASİR DÖVRDƏ İNFORMASİYA MÜHARİBƏSİ VƏ MEDİA TEXNOLOGİYALARI

## QARABAĞ MÜHARİBƏSİ VƏ İŞĞALÇILIQ SİYASƏTİNİN FƏSADLARI

**Aynur Nəsirova**

*BDU, Beynəlxalq jurnalistika və informasiya siyasəti kafedrasının müdiri*
*ORCID: 0000-0002-2463-8813*
*aynur_bsu@gmail. com*

**Xülasə**

*"Qarabağ müharibəsinin iqtisadi nəticələri - İşğal zamanı Azərbaycan ərazilərində talançılıq" adlı məqalədə 1991-ci ildən 2020-ci ilə qədər olan dövr ərzində Ermənistanın Azərbaycana vurduğu iqtisadi zərərlər araşdırılıb. Məqalədə rəsmi Yerevan, eləcə də qondarma Dağlıq Qarabağ Respublikası rəhbərliyinin işğal altında saxladığı Azərbaycan ərazilərində enerji, mineral, kənd təsərrüfatı ehtiyatlarını çapıb-talaması faktlarla göstərilib. Qeyd edilib ki, 29 il ərzində Ermənistan öz şirkətlərinin xaricdəki filialları vasitəsilə işğal etdiyi Dağlıq Qarabağda istismarla məşğul olaraq, böyük həcmdə gəlir əldə edib. Azərbaycana maxsus resursların xarici biznes sahiblərinə verilməsi nəticəsində Qarabağda Rusiya, ABŞ, Hindistan, İsveç, Livan, Britaniya, Almaniya, Fransa kimi ölkələrin biznes qurmalarına şərait yaradıb.*

***Açar sözlər:** Azərbaycan, Ermənistan, Qarabağ, talançılıq, təbii resurslar*

Azərbaycan Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri içərisində siyasi motivlər qədər iqtisadi maraqlar da mühim yer tutur. Qarabağ sənaye müəssisələrinin tərkibi və inkişaf səviyyəsinə görə keçmiş Azərbaycan SSR-nin iqtisadi regionları arasında dördüncü yerdə dayanıb. Qarabağın yeni müstəqillik əldə edən Azərbaycan üçün iqtisadi əhəmiyyəti təbii sərvətlər, infrastruktur, geocoğrafi cəhətdən çox idi. Dövrün mənzərəsini rəqəmlərlə ifadə etsək, təkcə kənd təsərrüfatında istehsal edilən taxılın 14,3, üzümün 31,5, ətin 14,5, südün 17,1, yunun 19,3, baramanın 17, iribuynuzlu mal-qaranın 15,1, xırdabuynuzluların isə 19,2 faizi həmin ərazilərin payına düşürüdü. İribuynuzlu heyvandarlıqda Laçın, Ağdam və Füzuli rayonlarının, xırdabuynuzlu heyvandarlıqda isə Laçın, Ağdam, Kəlbəcər, Füzuli və Cərbayıl rayonlarının göstəriciləri yüksək idi (3). Bu ərazilərdə kənd təsərrüfatının inkişaf potensialının qiymətləndirilməsi üçün işğaldan əvvəlki dövrdəki vəziyyətin təhlil olunmasına ehtiyac var.

Münaqişə yarandığı vaxtdan və işğal prosesi reallaşdıqdan bir müddət sonra xarici dəstəklərlə yanaşı Ermənistan Azərbaycan torpaqlarının potensialını araşdırıb, onun iqtisadi xəritələnməsini təşkil edərək qanunsuz investisiya siyasəti həyata keçirməyə başlayıb. Rusiyanın "Sekret Firma" jurnalı bu illər ərzində Qarabağın kənd təsərrüfatı məhsullarının istehsalının artması ilə bağlı araşdırma aparıb. Məlum olub ki, işğal zamanı kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 120 milyon dollar həcmində olub. Bu istiqamətdə təkcə Alman və Çexiya şirkətləri 200 milyon dollar həcmində investisiya yatırıb. Hazır məhsullar isə İran və yaxud Rusiya vasitəsilə "Made in Artsax" adı altında xaricə ixrac edilib.

İşğal dövründə iqtisadi proseslər rəsmi formada Ermənistan deyil, qondarma rejim adı altında aparılıb. Dağlıq Qarabağ Respublikası adlı qondarma rejim sərvətlərin istifadəsi və immiqrasiya vasitəsilə münaqişəni fərqli yerlərə çəkib. Bununla da Cenevrə Konvensiyasının qəbul etdiyi beynəlxalq hüquqi aktlar demoqrafik dəyişiklik ilə pozulub. Suriya və Livandan köçürmə siyasəti, eləcə də yerli sakin adı ilə ermənilərin Qarabağa, xüsusilə Xankəndinə köçürülməsinin digər səbəbi isə beynəlxalq şirkətlər üçün ucuz işçi qüvvəsi yaratmağa hesablanıb.

Təbii sərvətlərin qondarma rejim adı altında talanması və xarici şirkətlərin siyasi olaraq Qarabağ məsələsinə qarışdırılması məqsədilə Ermənistan Azərbaycanın işğal altında olan ərazilərinə beynəlxalq şirkətlər cəlb edib. Azərkosmosun çəkdiyi fotolarda Qarabağda təbii sərvətlərin talanması faktlarla göstərilir (4). Halbuki oxşar münaqişəli coğrafiyalarda Avropa və ABŞ şirkətlərinin fəaliyyəti yolverilməz hesab edilir.

Separatçı rejim vasitəsilə Ermənistan beynəlxalq hüququ pozaraq Azərbaycanın işğal edilən ərazilərində xarici şirkətlər üçün xüsusi təkliflər planı hazırlayıb. Bu zəngin torpaqlarda fəaliyyət üçün əlverişli hesab edilsə də, sözügedən koorporasiyaların da Azərbaycana dəyən ziyanda payı var. İşğal dövründə Qarabağda telekommunikasiya və rabitə işlərini əsasən Fransa şirkətləri qurub. Bu, erməni biznesmenlərinin idarə etdiyi sahə və lobbinin gücü kimi qiymətləndirilir. "Who else profits 2017" hesabatına əsasən, Avropanın ən böyük 4-cü şirkəti hesab edilən "Orange" 2017-ci ildə Ermənistanda rəsmi filialını açıb (5). Lakin şirkətin Ermənistan və işğal edilən Azərbaycan torpaqları ilə bağlılığı təqribən 2007-ci ilə təsadüf edir.

Rəsmi filialın "Ucom" şirkətinə satılmasından sonra isə Fransa şirkəti Qarabağ üçün milyonlarla ianə toplayıb və qondarma rejimin büdcəsinə köçürüb. Bu, Ermənistanın Artsax adı ilə yaratdığı rejimin büdcə sənədlərində də yer alır. "Orange"in Qarabağ ərazisindəki fəaliyyəti "Karabakh telecom" ilə olan müqavilə ilə bağlıdır. Müqavilənin şərtlərinə görə, şirkət Azərbaycanın işğal olunan ərazilərində qeyri-qanuni rouminq fəaliyyətini öz üzərinə götürüb. Bundan əlavə Fransa şirkəti Qarabağa səyahət edənlər və oradakı hərbçilər üçün xüsusi endirim paketləri təyin edib. Dünyada 100 minə yaxın işçisi olan telekommunikasiya şirkəti Al Armanian fonduna birbaşa və "Phonethon" şirkəti vasitəsilə





könüllü transferlər həyata keçirib. İanələr Qarabağda yeni yaşayış yerlərinin tikintisinə xərclənib (6).

Qarabağın talanmasında ən böyük paya malik olan şirkətlərdən Aurubis AG Avropada ən böyük mis istehsalı ilə məşğul olan şirkətdir. 15 milyardıq dövriyyəsi olan Auribus Qondarma rejimin ən böyük vergi ödəyicisi hesab edilir. Belçikada və Almanların biznesi Qarabağda təqribən 10 ildən artıq davam edib. Şirkət həmçinin Qarabağdan 1200 nəfərlik işçi də cəlb edib (7).

İşğal edilən ərazilərin talan edilməsi və sərvətlərinin xaricə satılması Ermənistana daha çox vəsait qazandırıb. Nümunə kimi Seva Xaçaturyanın yaratdığı "Karabakh Caret" şirkətinin son illərdə 1 milyar dollar həcmində tarixi əşya və xalçaların satılmasını göstərmək olar (8).

İşğal dövründə Azərbaycan torpaqlarında qeyri-qanuni fəaliyyət göstərən şirkətlərin dövriyyəsinin həcminə görə, Rusiya ikinci yerdə dayanır. Bu illərdə Rusiya şirkətləri infrastruktur layihələrində aktiv iştirak edib. "Sekret Firma" jurnalının araşdırmasına əsasən, Qarabağda yol tikintisi və hava limanı quruculuğunu məhz Rusiya həyata keçirib (9). Separatçı rejimin silahlanması da məhz Rusiyanın Ermənistandakı hərbi bazası vasitəsilə (10). Rusiyanın «Sekret Firma" jurnalının xüsusi müxbiri Viktor Feşenko Qarabağdan hazırladığı xüsusi reportajlarda bir çox gizli məqamlara aydınlıq gətirib. Jurnalın yazdığına görə, Ermənistan Qarabağın təbii sərvətlərini daşımaq üçün 2012-ci ildə Xocalı hava limanını yenidən tikərək böyük həcmli təyyarələrin enməsi üçün istifadəyə yararlı hala gətirib. Halbuki Ermənistanın işğalı altındakı Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğundan Xocalı hava limanına rəsmi Bakının icazəsi olmadan xaricdən ağır yük təyyarələri endirilə bilməzdi. Bu ərazilərdə mülki aviasiyaya məxsus lisenziya hüququ yalnız Azərbaycana məxsusdur. Fransız mənbələrin məlumatına görə, Qarabağda qızıl hasilatı üçün istifadə olunan avadanlığın böyük hissəsi Rusiya və Fransadan gətirilib.

Azərbaycanla yanaşı Belarusiya, Qazaxıstan, Ukraynada bir sıra işlər görən Rusiyaya məxsus Radar Metrologiya İnstitutu Qarabağdakı fəaliyyətini gizlətməyə çalışsa da, şirkətin dəstək üçün yeni sistem quraşdırması qondarma respublikanın saytında ayrıca məqalə kimi yer alıb (11).

İşğal dövründə İran İslam Respublikası Qarabağda Azərbaycanın maddi-mədəni sərvətinin talanmasında, erməni işğalının davamlı olmasında əlindən gələni edib. İranın Qarabağdakı biznesini təkcə şirkətlər və bankların fəaliyyəti yox, sərhəd bölgəsindəki əkin və otlaq sahələrinin birgə istismar edilməsi də əhatə edir. 80-ə yaxın İran şirkətinin işğal altında olan Azərbaycan torpaqlarındakı fəaliyyəti faktlarla təsdiqlənib (12). Sözügedən şirkətlərin adlarını "İran Mellat Bankı"nın İrəvan filialının şöbə müdiri olmuş Ermənistan vətəndaşı Hraçya Ovanisyan bankın onu işdən çıxarmasına və məhkəməyə verməsinə etiraz olaraq yayıb. Ümumiyyətlə, İran şirkətlərinin Qarabağda fəaliyyətinə dair açıq mənbələrdə yetərincə fakt var. Şuşada Yuxarı Gövhərağa məscidinin İran tərəfindən fars abidəsi kimi bərpa edilməsi bu qanunsuz və məkrli əməkdaşlığın sübutlarından biridir. Məscidin bərpasını 2014-cü ildə İranın "Part Saman

Cahan" şirkəti həyata keçirib. Şirkətin rəhbəri Səid Nəhavəndinin Ermənistanda memarlıq üzrə təhsil alması burada diqqətçəkən detallardan biridir. Məscidin bərpası İranın Şərq Tarixi İrsinin Dirçəlişi Fondunun təşəbbüsü ilə həyata keçirilib, daha sonra fondun nümayəndələrinin iştirakı ilə açılışı da edilib.

İran şirkətləri ilə yanaşı İran bankları da işğal altında olan Azərbaycan ərazilərində mütəmadi fəaliyyət göstərib. Hətta 2018-ci ildə Qarabağdakı İran banklarından Ermənistana külli miqdarda pul köçürülməsi faktı Dünya Bankının 2019-cu ildə açıqladığı hesabata da salınıb. Beynəlxalq hüquqda Qarabağ Azərbaycanın ərazisi kimi tanındığı üçün Dünya Bankı hesabatında bunu "Azərbaycandan Ermənistana köçürülən maliyyə" olaraq qeyd edib. Bundan əlavə Xocalı hava limanında KRAMS-4 avtomatlaşdırılmış hava stansiyasını da məhz İRAM qurub. Hava limanı Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində yerləşdiyi və qondarma rejimi ölkələrin tanımaması səbəbi ilə rəsmi İATA siyahısında heç bir koda malik deyil. Ermənistan İran və Suriya üzərindən narkotiklərin daşınması və digər cinayət hesab edilən işləri gizli halda helikopterlərlə bu hava limanından həyata keçirirdi. Hava limanın helikopterlərlə işləməsi faktı İran və Suriyadan müəyyən məhsul daşımaları ilə mətbuatda çap edilib. Hava limanı və onu tikən Rusiya şirkəti 2011-ci ildə Avropa Şurasının Parament Assambelaysında da pislənib və bu haqda bəyannamə qəbul edilib.

Azərbaycan torpaqlarında fəaliyyət üçün xaricdə yaşayan ermənilər və onlara dəstək verən lobbi bizneslərinin fəaliyyəti də xüsusi vurğulanmalıdır. Bu, İsveç şirkəti olan Frank Muller Group-un timsalında daha aydın görünür. 1956-cı ildə erməni zərgər ailəsində dünyaya gələn Vartan Sirmakes az qala bütün biznes fəaliyyətini Qarabağa investisiya edib. Dünyaca məşhur Elton John, 50 cent, Demi Moore, Jose Morino kimi şəxslərin istifadə etdiyi saat markasını yaratdığı şəriki Frank Mulleri aldadaraq Qarabağda fəaliyyətə cəlb edib. Bunun nəticəsində Frank Muller Sirmakesi məhkəməyə verib, lakin Sirmakes məhkəmədə Frankın narkotik alüdəçisi olma səbəbindən məsuliyyətdən qurtulub. Frank Muller Qarabağda kürü və qızıl mədənini özündə birləşdirən investisiya potfelini genişləndirdiyinə görə İnterpolda axtarışa da verilib.

Beynəlxalq hüququn və iqtisadi siyasətin qeyri-qanuni işləməsi nəticəsində işğal altında olan zaman Azərbaycan ərazilərində su elektrik stansiyalarının da sayı artırılıb. Bu, Ermənistan və Britaniya şirkətləri vasitəsilə maliyyələşdirilib (13). Son 14 ildə Azərbaycanın işğal edilən ərazilərində "Triqe 1", 3 ədəd "Syunik", "Madagiz" və fərqli su elektrik stansiyaları istismara verilib. Bu stansiyalardan ən böyüyü Tərtər çayı üzərindı qurulan Sərsəng stansiyasıdır. Stansiyanın investisiyası Zənguzurda qeyri-qanuni fəaliyyət göstərən "M-Enerqo" kombinatı olub. Elektrik enerjisinin böyük həcmi Ermənsitana ötürülüb.

Ermənilər işğal dövründə fərqli tarixlərdə "Base Metals" adlı filizsaflaşdırma və qızılçıxarma işi ilə məşğulolan şirkətlər yaradıblar. İllik gəlirləri 20 milyon dollardan çox olan şirkətlər Britaniyadan maliyyələşib. Hətta Grant Thornt-un fəaliyyətini yaxından izləyən rəsmi Bakı 2017-ci ildə Azərbaycan Grant Thornton International şirkətinə, ölkənin işğal olunmuş ərazilərində fəa-





liyyət göstərməsinin yolverilməzliyi barədə xəbərdarlıq edib (14).

Ermənistan öz şirkətlərinin filialları vasitəsilə işğal etdiyi Dağlıq Qarabağda əlverişli coğrafiyada turizmdən böyük həcmdə gəlir əldə edib. Demoqrafik dəyişimə əl atması və hava nəqliyyatından istifadə, eləcə də resursların xarici biznes sahiblərinə verilməsi ilə Qarabağda Rusiya, ABŞ, Hindistan, İsveç, Livan, Britaniya, Almaniya, Fransa kimi ölkələrin bizneslərinin olması buna sübutdur (20).

Ermənilərin «təhlükəsizlik zonası» adlandırdıqları Azərbaycan rayonlarının ərazisində işğal dövrü ərzində mütəmadi olaraq qəsdən törədilən yanğınlar torpaq və meşə massivlərinin məhvinə səbəb olub. BMT-nin Baş Assambleyasının 7 sentyabr 2006-cı il tarixli «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı qətnaməsində ermənilərin bu hərəkəti pislənilib (15). ATƏT-in ekoloji vəziyyətin qiymətləndirilməsi üzrə missiyası regiona 10 günlük qiymətləndirmə səfərində yanğınların vurduğu ekoloji və iqtisadi ziyan, habelə yanğınların insanların sağlamlığı və təhlükəsizliyi üçün törətdiyi təhlükə barədə rəy verib. İşğal dövründə qəsdən törədilmiş yanğınlar nəticəsində ümumilikdə 110 min hektardan çox ərazi yanaraq məhv olub.

Rəsmi Bakı bu cinayətlər və onların zəncirvari qaydada törətdiyi nəticələrə hüquqi qiymət verilməsi məqsədilə müvafiq beynəlxalq instansiyalar və mexanizmlər çərçivəsində hüquqi qiymət verilməsi tələbi ilə aidiyyatı instansiyalara müraciət ünvanlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğal zamanı və işğaldan sonra da dəfələrlə beynəlxalq tribunalarda çıxışı zamanı diqqəti işğal altındakı Azərbaycan torpaqlarının talan edilməsinə, qanunsuz istifadəyə çəkib. Ermənistanın işğal altındakı Azərbaycan ərazilərinə vurduğu ziyanın hesablanması və rəsmi Yerevana təzminat tələbi də gündəmdədir (16). Bununla bağlı Dünya Bankı, BMT kimi beynəlxalq institutların aydın metodologiyası var. Ziyanın qiymətləndirilməsi prosesinə beynəlxalq ekspertlərin də cəlb edilməsi daha dəqiq məbləğin hesablanmasına imkan yaradacaq.

Azərbaycanın işğal olunmuş ərazisində 160-dan çox müxtəlif qiymətli metal yatağı, o cümlədən 5 qızıl yatağı, 7 civə, 2 mis yatağı, habelə 1 qurğuşun və sink yatağı, 1 daş kömür yatağı, 6 alebastr, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 rəngli və dekorativ daş yatağı, 21 üzlük daş yatağı və s. fəaliyyət göstərib. Bir vaxtlar Azərbaycanın iqtisadi potensialı üçün böyük əhəmiyyət kəsb edən bu yataqlar 30 ilə yaxın talan edilərək xaricə ixrac olunub. İşğal dövründə Azərbaycan Qarabağın zəngin mineral-xammal bazasından istifadə etmək imkanından məhrum olub.

İşğal dövründə Qarabağda təbii ehtiyatların istismarı iqtisadi ziyanla yanaşı, ciddi ekoloji risklər də yaradıb. Belə ki, dağ-mədən sənayesi xüsusi təmizləmə tələb edən çirklənmiş tullantı hovuzlarının yaranmasına gətirib çıxarıb. 2016-cı il üzrə hesabatda təqdim olunan məlumatlara görə, artıq həmin dövrdə Qarabağ ərazisindəki tullantı hovuzlarında milyonlarla ton ağır metal və digər təhlükəli maddələrlə dolu tullantılar olub.

Ermənistanın Azərbaycana qarşı ekoloji terroru 2-ci Qarabağ Müharibə-

si dönəmində də davam edib. 44 günlük müharibə zamanı erməni silahlı qüvvələrinin ağ fosforlu mərmilərdən istifadə etməsi faktdır (17). Bu maddə zəhərləmək və təhlükəli yanıq izləri qoymaqla yanaşı, həm də söndürülməsi çətin olan yanğınlara səbəb olur.

27 sentyabr - 10 noyabr 2020-ci il tarixlərində aparılmış 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı zəfərindən və ərazi bütövlüyünün bərpasından sonra, işğal illəri ərzində həyat fəaliyyətinin müxtəlif sahələrində, o cümlədən ekoloji sahədə Ermənistanın Azərbaycana vurduğu ziyanın qiymətləndirilməsi prosesinə başlanılıb. Azərbaycan artıq bəyan edib ki, beynəlxalq məhkəmələr vasitəsilə həm Ermənistan, həm də Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərində qeyri-qanuni biznes qurmuş beynəlxalq şirkətlərin təzminat ödəməsini tələb edəcək.

«Bu ərazilərdəki təbii sərvətlərin qeyri-qanuni istismar edildiyi danılmaz faktdır. Bizim əlimizdə şirkətlərin adları var. Qeyd etməliyəm ki, əgər qızıl və digər yataqlarımızı qeyri-qanuni istismar edən bu şirkətlər təzminat ödəməsə, bu məsələ məhkəməyə veriləcək, orada isə onları biabırçılıq gözləyir» - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilin yekunlarına həsr olunmuş 6 yanvar 2021-ci il tarixli müşavirədə belə deyib (18). Prezident İlham Əliyev vurulmuş ziyanın hesablanması prosesinin davam etdiyini, xarici mütəxəssislərin də bu işə cəlb olunduğunu xatırladıb.

Azərbaycan dövləti təqsirkarların cəzalandırılması və ölkəuə dəyən zərərin təmin edilməsi üçün maksimum səy göstərəcəyini bəyan edib (19). Vurulmuş ziyanın hesablanması prosesi hazırda da davam edir, bu işə xarici mütəxəssislər cəlb olunub.

"Müharibənin başa çatması" (War termination) nəzəriyyəsinə görə, müharibənin müddəti və nəticəsi məqsədlərdə güzəştə getmək istəyi ilə sıx bağlıdır. Bu istəyin özünü də müharibənin gedişi müəyyənləşdirir. Liderlər qarşı tərəfin güzəştə getməsinə təsir edən amilləri – gücü, qətiyyəti və maliyyə resurslarını dəyərləndirməklə öz tələblərini dəyişdirə, hərbi nəticələr barədə gözləntilərin döyüş meydanında özünü doğruldub-doğrultmamasından asılı olaraq müharibə məqsədlərini yenidən nəzərdən keçirə bilərlər. Azərbaycan dövləti İkinci Qarabağ Müharibəsində Ermənistan rəhbərliyini kapitulyasiya müqaviləsinə imza atmağa vadar etməklə qarşıya qoyulan bütün məqsədlərə çatıb.

Müharibə nəticəsində qarşılaşdığı zərərləri bərpa etmək və davamlı iqtisadiyyat qurmaq üçün Ermənistana uzun illər, böyük həcmdə maliyyə resursları lazımdır. Hazırkı vəziyyətdə Ermənistan üçün iqtisadi inkişaf əldə etməyin yeganə yolu uzun illər qonşularına qarşı apardığı aqressiv siyasəti tərk etməsi və regional layihələrə qoşulmasıdır. Bununla Ermənistan qonşu dövlətlərdən dəstək ala və regional layihələrin bir parçasına çevrilə bilər. Bu isə onu göstərir ki, Azərbaycanın işğalda olan torpaqlarını azad etməsi regionda davamlı iqtisadi inkişafın və sülhün təmin edilməsi üçün böyük imkanlar yaradır.





## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Ermənistan-Azərbaycan münaqişəsi, Tammətnli elektron materiallar məcmuəsi, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin prezident kitabxanası, Bakı, 2005, https://files. preslib. az/projects/azdiplomacy/a2_4. pdf
2. https://www. eurasiareview. com/18042021-economic-implications-of-second-karabakh-war-for-armenia-oped
3. https://vergiler. az/news/economy/11103. html
4. https://www. mfa. gov. az/files/shares/Azercosmos. pdf
5. https://narcokarabakh. net/en/companies/orange
6. https://www. panorama. am/en/news/2020/11/23/Phonethon-Armenia-Fund/2406937
7. https://thelondonpost. net/azerbaijani-golds-day-light-robbery-armenia-occupied-territories/
8. https://spu. ba/General-Organic-and-Biochemistry-by-Joseph-J-Topping-Katherine-J-Denniston-and-Robert-L-Caret-2007-Other-Hardcover-2071725. html
9. https://secretmag. ru/cases/stories/artsakhepic. htm?fbclid=IwAR2ys4rBP7beyFKu4rfJ_2qIQlsTS3gNLntbyogJd8XBK1SQKLUykElE9bg
10. https://zerkalo. az/inostrannye-kompanii-zanimavshiesya-nezakonnoj-deyatelnostyu-v-karabahe-budut-privlecheny-k-otvetstvennosti/
11. https://artsakhpress. am/eng/news/
12. https://qafqazinfo. az/news/detail/isgal-zamani-qarabagda-fealiyyet-gosteren-iran-sirketleri-siyahi-339172
13. https://www. opendemocracy. net/en/odr/revealed-the-uks-business-links-to-nagorno-karabakh/
14. http://eco. gov. az/az/nazirlik/xeber?newsID=11228
15. https://undocs. org/en/A/RES/60/285
16. https://jamestown. org/program/azerbaijan-demands-compensation-from-armenia-for-destruction-of-previously-occupied-territories/
17. https://mod. gov. az/en/news/the-enemy-is-attempting-to-lay-the-basis-for-his-further-provocations-by-delivering-phosphorus-cargo-to-the-territory-of-33523. html
18. https://president. az/en/articles/view/49933
19. https://story. karabakh. center/az/ermeni-ishgali-dovrunde-qarabagda-qeyri-qanuni-iqtisadi-fealiyyet
20. https://demokrat. az/az/news/7040/qarabagi-talayan-xarici-sirketler-siyahi
21. https://dq. mia. gov. az/upload/2. pdf
22. https://story. karabakh. center/ru/nezakonnaya-ekonomicheskaya-deyatelnost-v-karabakhe


**Aynur Nasirova**

### The consequences of the Karabakh war and the policy of aggression

### Summary

*The economic damage caused by Armenia to Azerbaijan from 1991 to 2020 is examined in the article «The economic consequences of the Karabakh war - plundering of Azerbaijani lands during the occupation». The article covers the fact of looting of energy, mining and agriculture resources in the occupied territories of Azerbaijan by the administ-*

*rators of the official Yerevan and the fictional Nagorno-Karabakh Republic. At the same time, 29 years lasted occupation period, Armenia has gained a large amount of income from the exploitation of occupied Nagorno-Karabakh through the foreign branches of its companies. As a result of the transfer of Azerbaijani resources to foreign business owners, conditions were provided for countries such as Russia, USA, India, Sweden, Lebanon, England, Germany and France to position their companies in Karabakh.*

***Keywords:*** *Azerbaijan, Karabakh, Armenia, illegal, natural resources.*

**Айнур Насирова**

**Последствия Карабахской войны и политика агрессии**

**Резюме**

*В статье «Экономические последствия Карабахской войны – грабежи на Азербайджанских территориях в период оккупации» исследуется экономический ущерб, нанесенный Арменией Азер-байджану в период с 1991 по 2020 годы. В статье фактами показа-но разграбление энергетических, минеральных и сельскохозяй-ственных ресурсов на оккупированных Ереваном официальных территориях Азербайджана, а также в так называемой Нагорно-Карабахской Республики. Отмечалось, что в течение 29 лет Арме-ния через филиалы своих компаний за границей занималась экс-плуатацией земель в оккупированном Нагорном Карабахе и полу-чала большую прибыль от этого. В результате предоставления ре-сурсов Азербайджана иностранным предпринимателям такие страны, как Россия, США, Индия, Швеция, Ливан, Великобритания, Германия, Франция создали условия для ведения бизнеса в Кара-бахе.*

***Ключевые слова:*** *Азербайджан, Карабах, Армения, разграб-ление, природные ресурсы.*